## İş adamları ilə görüş

Aprelin 6-da Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Mahəddin Namazov Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) ofisində birliyin üzvləri ilə görüşmüşdür. Görüşün keçirilməsində məqsəd vergi qanunvericiliyindəki ən son dəyişikliklər, vergi prosedurlarında gözlənilən yeniliklər və ümumilikdə Azərbaycanın yaxın və orta gələcək üçün vergi siyasətinin əsas istiqamətləri barədə ATİB üzvlərini məlumatlandırmaq olmuşdur. Görüşdə ATİB üzvləri ilə yanaşı, Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyinin əməkdaşları da iştirak etmişlər.

M.Namazov bü cür görüşlərin ATİB və dövlət orqanları, o cümlədən Vergilər Nazirliyi arasında səmərəli əməkdaşlıq münasibətlərinin formalaşmasına yardım göstərdiyini bildirmişdir. Nazirlik rəsmisi tədbir iştirakçılarına hazırda həyata keçirilən vergi siyasəti haqqında məlumat vermişdir. O, «195» Telefon-məlumat xidmətinin və vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyətinə toxunaraq, onların əsas məqsədinin vergi ödəyicilərinə xidmət göstərmək, o cümlədən, vergi bəyannamələrinin doldurulması və hesabatların təqdim edilməsində vergi ödəyicilərinə yardım etmək olduğunu bildirmişdir.

M.Namazov «Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» Azərbaycan Prezidentinin 23 may 2011-ci il tarixli fərmanının icrası ilə əlaqədar nazirlik tərəfindən tədbirlər planı qəbul edildiyini vurğulamışdır. Nazirlik rəsmisinin sözlərinə görə, vergi hesabatları və bəyannamələrinin verilməsi prosesində vergi orqanları ilə ödəyicilər arasında kontaktın mümkün qədər minimuma endirilməsi nəzərdə tutulur: «Bunun üçün dünya təcrübəsi öyrənilərək, Niderland Krallığının təcrübəsinin tətbiq edilməsi qərara alınıb və müvafiq müqavilə imzalanıb».

Vergi Məcəlləsinə dəyişikliklərin hazırlandığını söyləyən M.Namazov qeyd etmişdir ki, dəyişikliklərin hazırlanmasında yalnız dövlət orqanları deyil, iş adamlarını təmsil edən qurumlar, o cümlədən, ATİB yaxından iştirak edir. M.Namazovun sözlərinə görə, Məcəlləyə dəyişikliklər nağd hesablaşmaların məhdudlaşdırılması, qeyri-nağd hesablaşmaların stimullaşdırılması, bəzi vergi dərəcələrinin dəyişməsi, vergi güzəştləri, əsas vəsait anlayışı, bir sıra fərdi xidmət formalarının vergiyə cəlb olunması üsulları, əmlak vergisi və sair sahələri əhatə edəcək. Dəyişikliklərin aprel ayında hökumət tərəfindən müzakirə edilib, Milli Məclisə təqdim olunması gözlənilir.

Arzu İBRAHİMOVA